# 10 may ümummilli lider Heydər Əliyevin doğum günüdür

## Müdrik rəhbər, dahi şəxsiyyət



***10 may - ümummilli lider, bənzərsiz dövlət xadimi, böyük siyasətçi Heydər Əliyevin doğum gündür. Bu il 95-ci ildönümü olan bu tarixin xalqımız tərəfindən qeyd olunması ənənə halını almışdır.***

Heydər Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini davam etdirməyə imkan verməmişdir. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında əməliyyat müvvəkkili və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifələrində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, birinci müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında da partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyasi böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir.

Heydər Əliyev 15 iyun 1993-cü ildə Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyunun 24-də isə Ali Sovetin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

1993-cü il oktyabrın 3-də ümumxalq referendumu nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş, lakin səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir. 2003-cü il dekabrın 12-də Azərbaycanın ümummilli lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

**Varis YAQUBOV,**
**«Qəbələ»**

# Zərifə xanım Əliyevanın 95 illiyi qeyd olunub

***Aprelin 28-də Qəbələ Müalicə Diaqnostika Mərkəzində görkəmli oftalmoloq-alim, əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

***Tədbiri mərkəzin baş həkimi Ceyhun Əhmədov açaraq akademik Zərifə xanım Əliyevanın Azərbaycan oftalmologiya elmini beynəlxalq oftalmologiya elmi səviyyəsinə qaldırdığını, dünya oftalmoloqlarının onu öz sıralarında gördüklərini deyib.***

Ceyhun Əhmədov Zərifə xanım Əliyevanın elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyərək, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsi və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirdiyini, onun oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatların, qazandığı nailiyyətlərin, yazdığı fundamental əsərlərin nəinki Azərbaycan, eləcə də dünya tibb elminin tarixində yeni səhifələr açdığını, əsərlərinin, elmi monoqrafiyalarının bu gün də Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil etdiyini bildirib.



öz aktuallığını itirmədiyini bildirib.

Tədbirdə mərkəzin həkimi Şahanə Pənahova görkəmli alimin elmi fəaliyyətinə dair məruzə edib. Məruzədə həmkarları, yetirmələri, xəstələri arasında böyük hörmət və məhəbbət qazanan Zərifə xanım Əliyevanın həkim fədakarlığı, yüksək vətəndaşlıq mövqeyi, səmimiyyəti və insanlara qayğısı barədə ətraflı danışılıb.

Sonra oftalmoloq həkim Səbinə Məmmədova çıxış edərək akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurların

Rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov Zərifə xanım Əliyevanın elmi fəaliyyətinin çox zəngin və əhatəli olduğunu, onun oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar apardığını və dəyərli elmi-tədqiqat işləri yazaraq gənc oftalmoloqlar nəsli üçün əvəzolunmaz elmi irs qoyduğunu diqqətə çatdırıb.

Sabir Bayramov görkəmli dövlət xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə



xanım Əliyevanın bu böyük insandan görüb-götürdükləri və şəxsi fədakarlığı sayəsində ölkəmizdə o dövrdə çox geniş yayılmış traxoma və bir sıra digər göz xəstəliklərinin tam müalicə olunaraq dəmək olar ki, tamamilə aradan qaldırıldığını vurğulayıb.

Tədbirdə iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxışında görkəmli alim, sədaqətli ömür-gün yoldaşı, mehriban və qayğıkeş ana olan, milli-mənəvi və yüksək əxlaqi dəyərləri varlığında təcəssüm etdirən Zərifə xanım Əliyevanın hamı üçün örnək bir insan olduğunu bildirib.

O, həmçinin Zərifə xanım Əliyevanın müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olduğunu qeyd edib.

Ətayə Osmanova nitqində bildirib ki, fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi Zərifə xanım Əliyevanı hər kəsə sevdirib, onu gələcək nəsillər üçün əsl nümunəyə çevirib.

**“Qəbələ”**
**Səhrab Umuyev (foto).**

# Birgə tədbir təşkil olunmuşdur

Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar rayonumuzun ümumtəhsil məktəblərində, mədəni-maarif ocaqlarında, idarə və müəssisələrində müxtəlif tədbirlər keçirilir.



Rayon tarix-diyarşünaslıq muzeyində də Qəbələ regional “ASAN xidmət” könüllüləri ilə bərabər “Azərbaycan Xalq Cümhuriyyəti - 100“ mövzusunda tədbir təşkil edilmişdir. Tədbir iştirakçıları əvvəlcə muzeydə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş sərgidəki tarixi materiallara, kitablara, fotoşəkillərə, 1918-1920-ci illərdə cümhuriyyətin buraxdığı pullara baxmışlar.

Sonra mövzuya dair mühazirələr dinlənilmiş, diskusiya aparılmışdır.Tədbir əsasında muzeydə qısa metrajlı sənədli film hazırlanmışdır.

Muzeyin direktoru Xalis Məmmədov “ASAN xidmət” könüllülərinin muzeydə geniş fəaliyyəti üçün lazımi şərait yaradıldığını və gələcəkdə də belə tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulduğunu bildirmişdir.

**İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**